## Ölümcül məhəbbət

Fərhadgilin kəndi elə bil düşməndən gizlənmişdi, sıldırım qayalarla dolu dağların arasında, Kürən çayının sahilində yerləşirdi. Kürən çayı həddindən artıq iti axır və kənd camaatı bu çayın dünyada ən iti axan çay olduğunu düşünürdü. Qış vaxtlarında çay öz məcrasından çıxır, suyun səviyyəsi yüksəlirdi. Bir neçə dəfə elə olmuşdu ki, su yaxın yerlərdəki evləri basmış və insanlar kəndin daha güvənli yerlərinə köçməli olmuşdular. Ona görə də, kənddəki evlərin hamısı çaydan xeyli aralıda, bir qədər hündürlükdə yerləşirdi.

Fərhadgilin evi kəndin ən hündür hissəsində yerləşirdi. Evdən baxanda qarşıda əsrarəngiz bir mənzərə açılırdı; uzaqda, hündür dağların başında ilin on iki ayı qar görünür, iki dağın arasından hündür şəlalə axırdı. Şəlalənin çaya töküldüyü yerdə sanki xüsusi hazırlanmış bir hovuz əmələ gəlmişdi və bura yay vaxtı kənd uşaqlarının ən sevdiyi məkana çevrilirdi. Uzaqdan baxanda şəlalə ağdonlu bir gəlin surətini xatırladırdı. Tanrının xəlq etdiyi ən istedadlı rəssam – təbiət elə bil ki bu tablonu kənd camaatına gözəllik bəxş etmək üçün yaratmışdı.

Kənddə cəmi 20-25 ev var idi, buna görə də hamı bir-birini tanıyır, birinin xoş günündə birlikdə sevinir, bəd günündə birlikdə üzülürdü. Kənddə məktəb olmadığı üçün bu kəndin uşaqları nisbətən böyük bir kəndin məktəbinə gedirdilər. Kəndlər arasında məsafə xeyli uzaq olduğundan uşaqlar əziyyət çəkə-çəkə iki kənd arasında qalmışdılar (bir neçə dəfə rayon təhsil şöbəsinə müraciət edilməsinə baxmayaraq, uşaqları aparıb-gətirmək üçün avtobus ayrılması mümkün olmamışdı). Onlar məktəbə getmək üçün çayın o tayına keçməli idilər. Yaz vaxtlarında elə olurdu ki, günlərlə leysan yağır, yağış kəsmək bilmirdi. Belə vaxtlarda sel gəlir, yollar keçilməz hala düşür, gediş-gəliş həddindən artıq çətinləşirdi. Çox vaxt elə olurdu ki, uşaqlar gündə iki-üç saat yolda olurdular.

Fərhad ali məktəbi yenicə bitirib kəndə qayıtmışdı və həmin məktəbdə riyaziyyat müəllimi işləyirdi. Ali məktəbi qurtardıqdan sonra dağ rayonuna – ucqar bir kəndə qayıtmaq istəyənlər həddindən artıq az olduğundan məktəbdə müəllim qıtlığı hökm sürürdü. Buna görə də, Fərhad riyaziyyat dərsləri ilə yanaşı fizika dərsi də deyirdi. O, həftənin beş günü səhərdən axşama qədər vaxtını məktəbdə keçirirdi. Fərhad yalnız dərs deməklə kifayətlənmir, məktəbdə mədəni həyatın inkişafına çalışır, müxtəlif dərnəklər təşkil edir, yarışlar keçirir, şagirdləri dərsdən sonra da müxtəlif tədbirlərə cəlb etməklə məktəb həyatını canlandırırdı. Onun təşəbbüsü ilə məktəbdə bir kitabxana təşkil edilmişdi. Fərhad tələbə vaxtı topladığı kitabları həmin kitabxanaya hədiyyə etdikdən sonra kəndin bir sıra adamları da evlərindən xeyli sayda kitab kitabxanaya vermişdilər. Fərhadın səyi nəticəsində qısa müddət ərzində məktəb nəinki həmin kəndin, eləcə də ətraf kəndlərin mədəniyyət mərkəzinə çevrilmişdi. Uşaqlarla işləməkdən, ümumiyyətlə, öz sənətindən zövq alan Fərhad qısa müddət ərzində kənd camaatı arasında böyük hörmət qazandı. Onun insani keyfiyyətləri, işgüzarlığı və

əməksevərliyi haqqında insanlar arasında hər imkanda danışılır, başqalarına nümunə kimi göstərilirdi. Hər kəs onu barmaqla göstərir, gənc qızlar gizlicə ona göz qoyur, atalar belə bir oğula, analar belə bir kürəkənə sahib olmağı arzulayırdılar. Artıq elə olmuşdu ki, kənddə baş tutan hər toy, nişan məclislərində Fərhad ev yiyəsinin ən əziz və hörmətli qonaqları arasında yer alırdı. Kəndin ən zəngin adamı hesab olunan Ziyəddin kişi (onun iki oğlu Rusiyada bizneslə məşğul idi) Fərhad müəllimə xüsusi hörmət əlaməti olaraq bir Qarabağ atı da bağışlamışdı. Fərhad bu ata xüsusi bir sevgi bəsləyirdi. Atın qızılı yalmanı, gün düşəndə par-par yanan beli, alnının qaşqası, ayaqlarının şəkili, göz oxşayan sağrısı, hələ rəvan yerişi... Fərhad ruha sığal çəkən bu gözəlliyə vurulmuşdu. Atın belinə qalxanda özünü təbiətin bir parçası bilirdi.

***

Günəşli bir gün idi. Fərhad səhər saat yeddidə atını minib evdən çıxdı. Çayı keçib yenicə yola düzəlmişdi ki, qulağına bir səs gəldi. Dönüb ətrafı dinşədi. Sakitlik idi. Yoluna davam etmək istəyəndə yenidən həmin səsi eşitdi. Sanki körpə uşaq ağlayırdı. Fərhad atın başını çəkdi, səs gələn tərəfə getdi. Səs getdikcə yaxınlaşırdı. Qabaqda bir qaya görünürdü, deyəsən, səs də o qayanın yanından gəlirdi. Fərhad qayaya yaxınlaşdı, yerindəcə donub qaldı. Qayanın dibində güllü adyala bükülmüş bir uşaq ağlayırdı. Cəmi 5-6 aylıq olardı. Fərhad dönüb ətrafa baxdı, heç kim yox idi. Uşağın yanında bir əmzik və bir şüşə yemək vardı. O, əmziyi körpənin ağzına verdi, uşaq dərhal kiridi. Fərhad hündürdən: Kimsə varmı, bu kimin uşağıdır, – deyə çağırmağa başladı. Lakin öz səsinin sıldırım qayalardan dönən əks sədasından başqa, heç nə eşitmədi. Fərhad qayanın dibində oturub körpəyə yemək verdi. Uşaq acgözlüklə yeməyə başladı, qarnını doyurduğu üçün kefi kökəlmişdi, Fərhadın əlindən möhkəm-möhkəm yapışdı. Fərhad uşağı əllərinə alıb başı üzərinə qaldırdı. Bu bir qız uşağı idi. Fərhad başa düşdü ki, uşaq valideyni tərəfindən atılmışdır. O: Vicdansızlar, insanlıqdan məhrum edilmişlər, bu uşağın günahı nədir axı?, – deyə qızcığazı bir ata nəvazişi ilə bağrına basdı, adyala büküb götürdü. Fərhad məktəbə getməyib evə qayıtdı. Başına gələnləri anasına danışdı. Anası uşağın valideynlərinin ünvanına deyinə-deyinə onu qucağına aldı, üz-gözündən öpərək əzizlədi. İsti su hazırlayıb çimizdirdi. Uşaq rahatlaşmışdı. Başına gələnlərdən xəbərsiz, əl-ayağını oynadaraq qığıldayır, mələk kimi gülümsəyirdi.

Fərhadın atası və beşyaşlı bacısı dörd il əvvəl, avtomobil qəzasında dünyasını dəyişəndən sonra ilk dəfə idi ki, evlərində körpə gülüşü eşidilirdi. Balaca qızcığazın gəlişi ailəyə yeni sevinc, yeni bir ruh gətirmişdi. Qısa müddətdə körpəyə o dərəcədə bağlandılar ki, artıq evlərini onsuz təsəvvür edə bilmirdilər. Fərhad rayon təhsil şöbəsi müdirinin köməyi ilə uşağa doğum şəhadətnaməsi aldı. Adını Afət qoydular. Sənəddə uşağın kimliyi Afət Fərhad qızı olaraq göstərilmişdi.

***

Aylar dolandı, illər keçdi. Fərhad otuz yeddi yaşına çatdı. Hələ evlənməmişdi. İki il əvvəl anası xərçəng xəstəliyindən dünyasını dəyişmişdi. Anasının vəfatından sonra mehrini saldığı yeganə varlıq Afət idi. Afət on altı yaşına çatmış, cavanların ürəyinə od salan gözəl-göyçək bir qız olmuşdu. Afət həm məktəbə gedir, həm də ev işləri ilə məşğul olurdu. Təxminən saat 3-də o artıq evdə olurdu, Fərhad qayıdana kimi yemək hazırlayır və dərslərini oxumağa çalışırdı. Fərhad evə gəldikdən sonra Afət bütün diqqətini ona verirdi.

Axşam saat səkkiz olardı. Fərhad müəllim yoldaşlarının birinin qızının nişan məclisindən gəlmişdi. Ümimiyyətlə, spirtli içki içməkdən heç xoşlanmayan Fərhad bu gün bir qədər içmişdi. Az içməsinə baxmayaraq, içki ona çox pis təsir etmiş, deyəsən, xeyli dəmlənmişdi. İçəri girən kimi Afət qabağına qaçdı, çantasını əlindən alıb bir tərəfə qoydu. Fərhad: Bir az yorulmuşam, – deyib yataq otağına keçdi. Afət tez qaçıb ləyən, qəhvədan gətirdi, Fərhadın etiraz etməsinə baxmayaraq, həmişə olduğu kimi, ayaqlarını yudu və: Bax, indi rahat-rahat yata bilərsən, – deyib yatağını hazırladı. Fərhad onun başını sığalladı: Sən olmasan mən neylərəm, – deyərək alnından öpdü. Afət ləyən və qəhvədanı götürüb yan otağa keçdi. Fərhad o qədər yorulmuşdu ki, uzanan kimi yuxuya getdi.

Gecə saat iki radələrində yuxudan ayıldı. Mətbəxə keçdi, soyuducudan kompot götürüb içdi, geri qayıdıb otağına keçmək istədi. Afətin otağının qapısı aralı idi, gözləri onun çarpayısına sataşdı. Afət iki əlini birləşdirib başının altına qoymuş, sağ çiyni üstündə yatmışdı. Üstü açıq idi. Fərhad onun üstünü örtmək üçün yaxınlaşdı, gözləri qızın pambıq kimi ağ baldırlarına sataşdı, bir anlığa ayaq saxladı, gözlərini Afətin uzun, ətli baldırlarından çəkə bilmədi. Hətta bir qüvvə onu başını bu maya kimi bəyaz baldırlara tərəf əyməyə məcbur etdi. Lakin Fərhad özündə iradə tapıb dayana bildi və cəld qızın üstünü örtüb otaqdan çıxdı.

Fərhad səhər tezdən durdu. Gecə beynindən keçən fikirlərə görə özünü möhkəm danladı. Bunun keçici bir hiss olduğuna özünü inandırmağa çalışdı. Üstəlik, gecə içkili olmuşdu. O, Afət durmamış, səhər yeməyi yemədən evdən çıxdı. O gün Fərhad məktəbdə həddindən artıq fikri dağınıq halda idi. Müəllimlər otağında gözlərini bir nöqtəyə zilləyib durur, heç kimlə danışmırdı. Afətin surəti gözünün qabağından getmirdi. İçində nələr baş verdiyini anlamaqda çətinlik çəkirdi. Amma bir şeyi dəqiq bilirdi; hansısa bir qüvvə, bir hiss onun iradəsini qırmağa çalışırdı.

Artıq Fərhad Afətin gözlərinə həmişəki kimi baxa bilmirdi. İndi bu baxışlarda bir ata nəvazişi deyil, odlu məhəbbətin hərarəti hiss edilirdi. İndi o, özündən asılı olmayaraq, Afətə tamam fərqli gözlə baxır, əlini əlinə aldıqda başqa hisslər keçirirdi. Və bütün bunlar onun dəmir kimi möhkəm iradəsinin əksinə baş verirdi. Bədbəxtlikdən, Afət heç nədən xəbərsiz tez-tez onun yanına gəlir, qucağında oturur, boynunu qucaqlayır, öpür, saçlarını sığallayırdı.

Fərhad da ona qarşılıqlı hərəkətlərlə cavab verir, özü də hiss edirdi ki, o, indi Afəti başqa cür qucaqlayır, ona başqa cür nəvaziş göstərir, onu başqa hisslərlə öpürdü. O, Afətin dodaqlarından öpməmək üçün özünü zorla saxlayırdı. Fərhad bunun uzun müddət belə davam edə bilməyəcəyini hiss edir və o anın gələcəyindən qorxurdu.

... Fərhad Afətə vurulmuşdu və ən təhlükəlisi isə, onun var gücü ilə müqavimət göstərməsinə baxmayaraq, bu ehtiras gündən-günə daha da güclənir, alovlanırdı. İndi o, gecələr Afətin soyunub öz yatağına girməsini gizlicə izləyir, ona baxmaqdan doymur, əli əlinə toxunduqca həyəcandan titrəyirdi.

***

Artıq vəziyyət dözülməz hal almışdı. Fərhad öz hissləri ilə heç cür bacarmır, ehtiraslarını boğa bilmirdi. Ürəyini boşaldıb məsləhət almaq üçün də özünə yaxın hesab elədiyi bir adam yox idi.

Axşam idi. Bir az tək qalıb, fikrini cəmləşdirmək üçün atını minib dağın döşünə qalxdı. Ay hər tərəfi öz füsunkar nuruna qərq etmişdi və hündürlükdən kəndin bütün evləri qızılı rəngə boyanmış kimi görünürdü. Fərhad xeyli, elə atın üstündəcə, bu əsrarəngiz mənzərəni seyr etdi. Özündən asılı olmayaraq, gözlərindən iki damla yaş muncuq kimi süzüldü. O, sol əlinin işarət barmağı ilə gözünün yaşını sildi, atdan düşüb balaca bir daşın üstündə oturdu. Öz-özünü sakitləşdirmək istədi, nə qədər çalışsa da, içində hayqıran təlatümlə bacarammadı. Fərhad odla su arasında qalmışdı. Bir tərəfdən, Afətin onu doğma atası bilməsi, camaat arasında qazandığı hörmət, insanların ona, onun bütün hərəkətlərinə örnək kimi baxması, digər tərəfdən də, baş verə biləcək hadisələrdən sonra elə həmin insanların ona necə nifrət edəcəyi, onun indi, əvvəlkindən fərqli mənada, yenidən barmaqla göstəriləcəyi kimi fikirləri beynindən keçirdikcə az qalırdı ki, ürəyi dayansın. İki il əvvəl baş tutmuş bir məclisdə öz müəlliminin onun haqqında dediyi sözlər yadına düşdü.

... Fərhad məktəbə direktor təyin edildiyi günün axşamı kənd soveti sədrinin evində onun şərəfinə bir ziyafət təşkil edilmişdi. Ziyafətdə kəndin ən qabaqçıl adamları, eləcə də rayon mərkəzindən dəvət edilmiş bir neçə vəzifəli şəxs iştirak edirdilər. Həmin məclisdə qocaman müəllimlərdən biri Fərhadın sağlığına badə qaldırmışdı: “Mən Fərhad müəllimə bu məktəbdə dərs demişəm. O mənim ən sevimli şagirdlərimdən biri olub. İndi onunla bir məktəbdə işləmək mənə xüsusi zövq verir və mən bundan böyük qürur hissi duyuram. Kəndimizə müəllim olaraq qayıtdığını eşidəndə hədsiz sevindim, çünki belə bir zəmanədə gənclərin, əsasən, şəhərə can atdıqları bir vaxtda Fərhadın doğma kəndinə üz tutması, bir daha onun daxili aləminin zənginliyindən, el-obaya, torpağa bağlılığından xəbər verir. Fərhad həmişə başqalarından fərqlənirdi. O həm dünyagörüşü, həm çalışqanlığı, həm də yoldaşlarına münasibətilə həmişə mənim diqqətimi çəkirdi. İllər Fərhad müəllimi daha da

kamilləşdirdi, onun zahirini gözəlləşdirdiyi kimi, daxili dünyasını da zənginləşdirdi. Bu mənada, Fərhad müəllimin tanımadığı, bilmədiyi, amansızcasına ölümün qucağına atılmış bir uşağa qarşı mərhəməti, çətinliklərə baxmayaraq, öz varlığını unudub bütün həyatını ona sərf etməsi, Afəti öz doğma övladı kimi böyütməsi isə sözlərlə ifadə edilə bilməz. Mən onun gözəl qəlbi qarşısında baş əyirəm. Məncə, Fərhad müəllim bu hərəkəti ilə bütün insanlara bir insanlıq dərsi vermişdir. Tanrı onu qorusun!”

Fərhad diksindi. İlahi! O, indi insanların üzünə necə baxacaq, illərlə yığılan bu hörmət, insanların etimadı, sevgisi bircə anda puça dönəcək, bir zamanlar hamının qürur qaynağı olan Fərhad indi hamının qınağına çevriləcəkdi...

Fərhad saatına baxdı. Artıq gec idi. Hiss etdi ki, hava da soyuyur. Dağ yerlərində tez-tez olduğu kimi birdən-birə göyün üzünə qara buludlar yığışmağa başladı, deyəsən yağış yağacaqdı. Fərhad evə döndü. Afət qonaq otağında televizora baxa-baxa, pişik kimi qıvrılıb yatmışdı. Fərhad uzun müddət başının üstündə durub ona tamaşa elədi. Afəti tapdığından bu yana onun bütün həyatı kino lenti kimi gözlərinin önündən gəlib keçdi. Fərhad göz yaşlarına hakim ola bilmədi, əyilib Afətin alnından öpdü və ağlaya-ağlaya öz otağına keçdi.

İndi Fərhadı ən çox narahat edən Afətin gələcəyi idi. Fərhad təxminən bir ay əvvəl Nurəddin müəllimlə aralarında olan bir söhbəti xatırladı:

... Otağında oturub kitab oxuyurdu. Afət içəri girdi: “Ata, Nurəddin müəllimdir, səni istəyir”. Fərhad ayağa qalxdı, Nurəddin müəllimi hörmətlə qarşılayıb otağa dəvət etdi. Nurəddin müəllim Fərhadın qapıbir qonşusuydu və uzun illər eyni məktəbdə ədəbiyyat müəllimi işləmişdi. Məktəbin ən hörmətli müəllimlərdən sayılırdı. Ömür yoldaşını faciəli şəkildə itirdikdən sonra ağır sarsıntı keçirmişdi və müəllimlikdən imtina etmişdi. İndi o, həyətində gözəl bağ-bağça salmışdı və bütün vaxtını bağa qulluq etməklə keçirirdi. Nurəddin müəllim bir az ordan-burdan danışdı və nəhayət bir qədər ciddi görkəm alaraq dilləndi: “Nazimin anası rəhmətə gedəndən sonra evlənmədim, bütün həyatımı oğluma həsr etdim. Nazim ali məktəbi bitirib qayıtdı. Rayon maliyyə şöbəsində işləyir. Dolanışığımız da, Allaha şükür, pis deyil. Düşünürəm ki, indi onun evlənmək vaxtı çatıb. Elə mənim də artıq nəvələrlə oynamaq vaxtımdır. Etiraz etməsən, Allahın əmri, Peyğəmbərin buyruğu ilə qızın Afəti oğlum Nazimə istəyirəm. Bildiyim qədər onların da gözü bir-birini tutub. Nə deyirsən?” Fərhadın başından elə bil qaynar su tökdülər: “Siz nə danışırsınız, Nurəddin müəllim. Afətin ərə gedən vaxtıdırmı? Xahiş edirəm, bu söhbətimiz burda da bitsin. Bir daş altda, bir daş da üstdə. Bir də bu söhbətə qayıtmaq istəmirəm”.

O gün Nurəddin müəllim Fərhadın belə sərt münasibətindən bir az incisə də, bu, qonşuluqlarına ciddi xələl gətirmədi və o, münasib bir zamanda məsələyə yenidən qayıtmağı düşünürdü.

***

Göy gurultusunun səsi Fərhadı fikrindən ayırdı. Pəncərəyə yaxınlaşdı. Eşik qapqaranlıq idi. Çaxan şimşək bir anlığa göy üzünü işıqlandırsa da, yenidən hər yana zülmət çökdü. Yağış getdikcə güclənirdi.

Fərhadın beynindən qorxunc fikirlər keçməyə başlamışdı. O bu fikirləri qovmaq üçün yatmağa çalışdı. Amma elə bil yuxusu ərşə çəkilmişdi, gözlərinə yuxu getmədi; ilan vuran yatdı, Fərhad yata bilmədi. O otaqda var-gəl edir, özünü sakitləşdirməyə çalışırdı. Lakin artıq ixtiyarı öz əlində deyildi, Afətə olan sevgisi vicdanının səsi qarşısında təslim olmuşdu.

Fərhad yazı stoluna yaxınlaşdı. Titrək əlləri ilə kağız-qələm götürüb nə isə yazdı. O, artıq son qərarını vermişdi. Zirzəmiyə endi, atasından qalan ov tüfəngini götürdü. İçini yoxladı, bircə güllə qalmışdı: Bu mənim yeganə çıxış yolumdur, – deyib tüfəngi ürəyinə tuşladı. Gözlərini yumub tətiyi çəkdi...

Səsə Afət oyandı. Qonşudan təlaş içində Nurəddin müəllim və oğlu Nazim gəldilər. Yerlərindəcə donub qaldılar. Nurəddin müəllim Afəti qucaqlayıb, bu qanlı mənzərəni görməsin deyə bağrına basdı. Afət hönkürərək qan-yaş tökürdü.

Tezliklə qonum-qonşu yığıldı. Səs bütün ətrafa yayıldı. Hər tərəfdən adamlar axışmağa başladılar. Fərhadın cansız bədənini taxtın üstünə uzatdılar. Açıq gözlərində iki damla yaş giləlǝnib qalmışdı. Nurəddin müəllim onun gözlərini qapadı, köynəyinin cibindəki kağız parçası diqqətini cəlb etdi. Götürüb açdı: “Əzizim Nurəddin müəllim, Nazimlə Afətə xeyir-duamı verirəm. Xoşbəxt olsunlar”.

“Niyə, nə üçün?” – Nurəddin müəllimin dodaqlarından bir sual qopdu.

Fərhadın intihar etməsinin əsl səbəbini isə, oxucum, səndən başqa, heç kim bilmədi.

*İyun 2020-ci il*
*Buzovna*